AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Azərbaycan iqtisadiyyatında böyümə yenə yavaşladı

25 dəqiqə öncə




Cənubi Qafqazda ÜDM ən az Azərbaycanda artır: Qonşuları niyə Bakını qabaqlaya bilir? (Arxiv. 2025)

2026-cı ilin yanvar-avqust aylarında Azərbaycanda 87 milyard 709.5 milyon manatlıq Ümumi Daxili Məhsul (ÜDM) istehsal olunub.

Dövlət Statistika Komitəsi (DSK) bu gün, sentyabrın 9-da açıqlayıb ki, **bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 1.2 faiz çoxdur.**

Hesabat dövründə neft-qaz sektorunda əlavə dəyər 0.8 faiz azalıb, qeyri-neft-qaz sektorunda isə 2.1 faiz artıb.

Yanvar-avqust aylarında neft-qaz sektorunda 26 milyard 181.9 milyon manat, qeyri-neft-qaz sektorunda isə 61 milyard 527.6 milyon manatlıq ÜDM formalaşıb.

DSK-nın bundan əvvəlki aylıq hesabatlarının təhlili göstərir ki, ölkə iqtisadiyyatında az da olsa böyümə yenidən kiçilməyə başlayıb. İyulun sonunda bu artım 1.4 faiz, mayda 0, yanvarda isə 1.7 faiz açıqlanmışdı.

Müstəqil iqtisadçılar 1 faiz civarında dəyişən artımı heç iqtisadi inkişaf saymırlar. Hələ may ayında artım tamamilə dayanarkən rəsmilər bunu bəzi dövlət proqramlarının icrasının dondurulması ilə izah etmişdilər. Onlar vurğulayırdılar ki, qarşıdakı aylarda yenidən artım bərpa ediləcək.

ÜDM ilə bağlı son göstəriciyə rəsmilərdən hər hansı münasibət bildirilməyib.

Müstəqil iqtisadçılar isə bu il Yaxın Şərqdə, xüsusilə də Hörmüz boğazı ətrafında gərginliyin artması ilə neftin kəskin bahalaşması fonunda Azərbaycanda iqtisadiyyatın böyüməməsini böhran siqnalı kimi dəyərləndirirdilər. Onlar vurğulayırlar ki, ölkədə əsas ixrac məhsulu olan neft hasilatı azalıb, qeyri-neft sektorunda isə yetərli inkişaf əldə edilməyib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur